## ZƏFƏR YÜRÜŞÜNDƏN 5 İL ÖTÜR...

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

## *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*



*Elçin MEHRƏLİYEV,*
*yazıçı-publisist,*
*filologiya elmləri doktoru*

### 3. AZADLIĞIN SEVİNCİ

Bəli, biz axır ki, haqqa qovuşduq, qələbə çaldıq, Qarabağimizin yolları üzümüzə açıldı! Allah böyükdür, ona inanmayana və şükr etməyənə lənət!

Fəqət Mahal kişinin bir çox prototipləri kimi, bu rolu oynayan Xalq artisti Kamal Xudaverdiyevin özü də, əsərdəki Güllü ana obrazını yaradan Xalq artisti Zemfira Əliyeva da, əsərə musiqi bəstələyən Əməkdar artist Adil Bəbirov da, o musiqini ifa edən estrada müğənnisi Arzu Rzayev də dünyalarını dəyişdiklərindən bu günü görə bilmədilər. Amma, əgər ruhun yaşaması haqqında deyilənlər doğrudursa, Qarabağın azadlıq xəbərinə onların da bizim qədər sevindiklərinə əminəm.

Mahal kişinin prototipi atam Əli müəllim rəhmətə gedəndə məzar daşının üzərinə bu sözləri həkk etdirmişdim:

Burda məsum insan yatır
Məsumlar məsud olar yuxusunda -
Yenə o yurd, torpaq qızılgül qoxusunda!
O, həsrəti adlayıb, qovuşub sevdasına,
Övladları baş əyir müqəddəs dünyasına.

Sevinirəm ki, onun "yuxusu" çin oldu. Allah "Qarabağ!" - deyə-deyə dünyasını dəyişmiş qarabağlılara və Vətən torpaqlarının azadlığı uğrunda döyüşlərdə həlak olan cəmi şəhidlərimizə qəni-qəni rəhmət eləsin! Amin!

* * *

Tarixi qələbə hərəyə bir cür təsir etdi: milli bayrağımızı dalğalandırıb bayram edən kim, "Gözün aydın, Vətən!", "Azadlığın mübarək, doğma Qarabağ!" deyib yurdun daşına-torpağına səcdə qılan kim, sevincin şiddətindən vəcdə gəlib hönkür-hönkür ağlayan kim, baş verənlərə inanmaqda çətinlik çəkib çaşqınlıq vəziyyətinə düşən kim, fədakar vətən oğullarına - şəhidlərimizə Allahdan rəhmət diləyən, qazilərimizə cansağlığı arzulayan, qəhrəmanlıq, vətənpərvərlik nəğmələri qoşan kim... Bir sözlə, Azərbaycanda həyat birdən-birə dəyişmiş, canlanmış, işıqlaşmışdı:

- ona görə ki, vətənimizə, xalqımıza Noisey Kalankatlı (VII əsrin sonu - VIII əsrin əvvəli), Cəbrayıl ata (VIII əsr), Xaçınlı Vaxtanq (XII əsr), I Həsən (XIII əsr), Həsən Cəlal (1215-1261), Məhəmməd Füzuli (1494-1556), Pənahəli xan (1693-1763), əcdadları Məhəmməd Füzulinin də mənsub olduğu Bayat tayfasından olan Molla Pənah Vaqif (1717-1797), İbrahim xan Cavanşir (1732-1806), Qasım bəy Zakir (1784-1857), Mir Mehdi Xəzani (1819-1894), Xurşidbanu Natəvan (1832-1897), Mir Möhsün Nəvvab (1833-1918), Nəcəf bəy Vəzirov (1854-1926), Səməd bəy Mehmandarov - Lənkəranda doğulsa da, əslən Şuşalıdır (1855-1931), Cabbar Qaryağdıoğlu (1861-1944), Firidun bəy Köçərli (1863-1920), Haşım bəy Vəzirov (1867-1916), Əhməd bəy Ağaoğlu (1869-1939), Əbdürrəhim bəy Haqverdiyev (1870-1933), Sultan bəy Sultanov (1871-1955), Həmidə xanım Cavanşir (1873-1955), Süleyman Sani Axundov (1875-1939), Cavad bəy Melikyeqanov (1878-1942), Xosrov bəy Sultanov (1879-1947), Üzeyir Hacıbəyov (1885-1948), Yusif Vəzir Çəmənzəminli (1887-1943), Bülbül (1897-1961), Xan Şuşinski (1901-1979), Xudu Məmmədov (1927-1988), Rafiq Əkiyev (1942 - --) və s. kimi görkəmli tarixi şəxsiyyətlər - sənətkarlar, alimlər, hərbçilər, siyasi-ictimai xadimlər bəxş etmiş qədim Qarabağımız düşmənin qara caynaqlarından qoparılmışdı. İndi onlar xalqımız və dövlətimiz tərəfindən qələbə əhval-ruhiyyəsi ilə yad edilrr, dağıdılmış qəbirləri, güllələnmiş heykəlləri, uşurulmuş abidələri yenidən sahmana salınıb ucaldılır;

- ona görə ki, tarixi-ədəbi yaddaşımızda yenilməzlik qalası, milli qürurumuzun simvolu kimi tanınıb yaşayan Şuşamız azad edilmişdi. Ali Baş Komandanın "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" kimi duyğulu kəlamları hər bir azərbaycanlının qəlbini riqqətə gətirmişdi;

- ona görə ki, dünyanın ən uzun çəkən münaqişələrindən birinə - 30 il davam edən və durmadan qurbanlar verdiyimiz Qarabağ münaqişəsinə son qoyulmuşdu, xalqımız uzun illər həsrətində qaldığı yurduna-torpağına könül cana, can ruhuna qovuşan kimi qovuşmuşdu;

- ona görə ki, doğma torpaqlarımız uğrunda döyüşlərdə şəhid olan vətən oğullarının qanı yerdə qalmamışdı. Uzun illər erməni qatillərinin qətlə yetirdiyi, Başlıbel, Qaradağlı, Meşəli, Ağdaban, Malıbəyli, Quşçular, Xocalı soyqırımına məruz qoyduğu dinc əhalinin qisası alınmışdı. Daşı daş üstündə qoyulmayan yurdlarımıza, uçurulub dağıdılan müqəddəs yerlərimizə, talan edilən maddi və mədəni sərvətlərimizə, yandırılan, məhv edilən bağ-bağatımıza, daha nələrə, nələrə görə haqq-hesab çəkilmişdi;

- ona görə ki, xalq öz Prezidentini yenidən tanımış, onun şəxsində həm siyasi fikir, həm də cəbhə döyüşlərində qalib gəlməyə qadir, yüksək intellektual səviyyəli, qətiyyətli, cəsarətli, vətənsevər bir lider seçdiyinə əmin olmuşdu. Cəmi bir neçə ay əvvəl, Qarabağın azadlığı uğrunda yürüş əmrini "gecikdirdiyinə" görə qınanılan cənab Prezident, Ali Baş Komandan indi, sanki birdən-birə əlçatmaz mərtəbədən yerə enmiş, sözün həqiqi mənasında xalq adamı olmuş, onun böyük sevgisini və dayağını qazanmışdı. Onun alnıaçıq, başıuca bir vəziyyətdə: "Uzun illər nə qədər düşünülmüş siyasət aparmışıq. Bir çox hallarda bu siyasətin əlamətlərini ictimaiyyətə təqdim edə bilmirdik. Çünki, sadəcə olaraq, bu, konfidensial məlumat idi və bizim planların reallaşmasına müdaxilə edilə bilərdi. Amma çox dəqiq, məqsədəuyğun, ardıcıl siyasət apararaq bir nöqtəyə vururduq, bir məqsədimiz var idi - torpaqlarımızı düşməndən təmizləmək. Buna nail olduq, həm döyüş meydanında, həm də danışıqlar masasında və razılaşma yolu ilə" - deyə xalq qarşısındakı etiraf və hesabat xarakterli çıxışı ürəklərə yağ kimi yayılmışdı. Onun şəhər və kəndlərimiz işğaldan azad edildikcə, hər bir qələbə xəbərini öz gücünə güvənən bir sərkərdə ədası ilə xalqa çatdırması, bunu qarşısıalınmaz "Dəmir yumruq" əməliyyatının tərkib hissəsi kimi şərh edib dəyərləndirməsi xalqımıza sadəcə gözaydınlığı deyil, həm də yeni azad-asudə bir həyatın başlanması haqqında mesajlar, bəyanatlar idi. Xalqla sadə dildə, ürəkdən tikan çıxaran ifadələrlə danışması, "Nə oldu, Paşinyan?", "Bəs Cəbrayıla yol çəkirdin?!", "Gorbagor oldu status!" , "İti qovan kimi qovduq" kəlmələri dildən-dilə dolaşır, xalqın qələbə əhval-ruhiyyəsini daha da yüksəldirdi;

- ona görə ki, Zəfər yürüşü millətimizin qəhrəmanlıq tarixini canlandırmış, igid oğullarımızın öz canlarını müqəddəs torpağımızın azadlığı yolunda rəşadətlə fəda etməyə həmişə hazır olduğunu bir daha sübut etmişdi, bu Vətən oğulları arxasında dünyanın böyük gücləri dayanan, müxtəlif lobbi təşkilatları tərəfindən maliyyələşdirilən, sıralarına peşəkar və yüksək hazırlıqlı xarici muzdlu döyüşçülər cəlb edilən işğalçı bir ordunu əzmiş, darmadağın etmişdi və biz müzəffər Milli Ordumuzun Vətənimizi istər bu gün, istərsə də sabah hər cür qəsddən, təhlükədən qoruyacağına əmin olmuşduq, bu, təbii ki, qəlbimizi qürur və iftixar hissi ilə döyündürmüşdü;

- ona görə ki, Zəfər yürüşü yüz minlərlə soydaşımızın erməni zillətinə və həqarətinə məruz qalmasına, torpaqlarımızın düşmən tapdağında inildəməsinə görə gözlərinin dərinliyində bir qəm, kədər hiss edilən, günahkarmış kimi üzü gülməyən vətəndaşlarımızın şərəf və ləyaqətini özünə qaytarıb qınaq və ittihamdan qurtarmışdı;

- ona görə ki, xalqımız Azərbaycanın qəhrəmanlıq tarixinə heç vaxt pozulmayacaq və düşmən üzərində qələbənin lider ətrafında yumruq kimi birləşmək nümunəsini gələcək nəsillərə öyrədəcək "Dəmir yumruq" əməliyyatının qüdrətini görmüşdü;

- ona görə ki, Ermənistan Ordusunun burnu əzilmiş, məğlubedilməzliyi barədə uydurulmuş miflər üfürülüb şişirdilmiş şar kimi partladılmış, puça çıxarılmışdı;

- cəngavər əsgərlərimiz dərələrdən, meşələrdən, dağlardan keçərək, Şuşa əlçatmazlığına gecələr sıldırım qayalarla dırmaşaraq, yüngül atıcı silah, bıçaq, süngü ilə əlbəyaxa döyüşlərə girərək, hər küçə, hər məhəllə, hər ev uğrunda çarpışaraq düşməni təşviş içində qaçmağa məcbur etmişdilər - Şuşanın işğaldan azad edilməsi hər günü rəşadətli, qələbəli 44 günlük Zəfər yürüşünün məntiqi nəticəsi və zirvəsi idi;

- ona görə ki, çətin günündə, taleyinin sınaq məqamında yanında dayanan dostunu bir daha yaxından tanımışdı, Türkiyə - Azərbaycan qardaşlığının sarsılmazlığına bir daha əmin olmuşdu. Cənab İlham Əliyevin qeyd etdiyi kimi: "İlk günlərdən, ilk saatlardan qardaş Türkiyədən göstərilən dəstək bütün dünyaya göstərdi ki, Türkiyə Azərbaycanın yanındadır. Əgər belə olmasaydı, ola bilərdi ki, artıq Ermənistan-Azərbaycan arasında olan bu münaqişə daha da geniş coğrafiyaya sıza bilərdi." Bəli, 1918-ci ildə Türk İslam Ordusu özünü çatdırıb Azərbaycanın erməni-bolşevik işğalından xilası uğrunda mücadilə aparmasaydı, bizim milli varlıq və milli dövlətçilik arzularımız bilmərrə məhv ola bilərdi. Təxminən 100 il sonra da Türkiyə qardaşlıq sevgisini, sədaqətini bir daha ortaya qoydu, bizi təkləyib əzənlərin qarşısında keçilməz sədd yaratdı. İndi xalqımız azad-asudə nəfəs alan Şuşamızda bu şəhərin toxunulmazlığına qarant kimi imzalanmış Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqındakı "Şuşa bəyannaməsi"ni bir nəfər kimi, canı-dildən dəstəkləyib, alqışlayır.

*(Davamı 3-cü səhifədə)*

